# *Volfqanq SOBOTKA:* "Avstriya ilə Azərbaycan arasında ticarət əlaqələrinin genişləndirilməsi üçün hər iki tərəfdə böyük potensial var"





Milli Məclisin Sədri Sahibə Qafarova Yunanıstana işgüzar səfəri çərçivəsində Avstriya Respublikası parlamenti Milli Şurasının sədri Volfqanq Sobotka ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Sahibə Qafarova ölkələrimiz və xalqlarımız arasında əlaqələrin dərinləşməsində dövlət başçıları və hökumət rəsmilərinin qarşılıqlı səfərlərinin və bu səfərlər zamanı imzalanan sənədlərin əhəmiyyətindən danışıb. Diqqətə çatdırıb ki, Azərbaycan Avstriya ilə ikitərəfli əlaqələrin inkişafında, həmçinin beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlığın genişlənməsində maraqlıdır.

Söhbət zamanı Milli Məclisin Sədri Azərbaycanla Avstriya parlamentləri arasında əməkdaşlığın inkişaf perspektivləri barədə danışıb.

Görüşdə Milli Məclisin Sədri qeyd edib ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm Zəfərin birinci ildönümü ərəfəsindəyik. Bir il öncə Ermənistanın 30 illik işğalına öz gücü hesabına son qoyan və ərazi bütövlüyünü bərpa edən Azərbaycan BMT Təhlükəsizlik Şurasının uzun illər kağız üzərində qalmış 4 qətnaməsinin icrasını təmin edib. Ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonra bölgədə yeni reallıqlar yaranıb. Milli Məclisin Sədri bildirib ki, münaqişə artıq tarixə qovuşub. Hazırda Azərbaycan gələcəyə hədəflənmiş layihələr icra edir, işğaldan azad olunmuş ərazilərimizdə sürətli bərpa və quruculuq işləri aparılır. Sahibə Qafarova xatırladıb ki, cari ilin iyulunda Prezident İlham Əliyevin imzaladığı fərmana əsasən, Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü müəyyənləşdirilib. Bu Fərmana əsasən, iki yeni rayon - Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb. O deyib ki, 10 noyabr Bəyanatından bir ilə yaxın vaxt ötməsinə baxmayaraq, Ermənistan hələ də minalanmış ərazilərin xəritələrini təqdim etməyib. Bu, beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasıdır.

Söhbət zamanı Avstriya parlamenti Milli Şurasının sədri Volfqanq Sobotka iki ölkə arasında parlamentlərarası əlaqələri daha da inkişaf etdirmək üçün qarşılıqlı səfərlərin vacibliyini qeyd edib. O, Azərbaycanın regiondakı iri beynəlxalq enerji və infrastruktur layihələrin həyata keçirilməsindəki aparıcı rolu, ölkəmizin Avropanın etibarlı enerji tərəfdaşı qismində çıxış etməsi barədə danışıb. Diqqətə çatdırıb ki, ticarət əlaqələrinin və investisiya yatırımlarının artırılması üçün hər iki tərəfdə böyük potensial var.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

Azərbaycan.- 2021.- 23 oktyabr.- S.4.